*https://doi.org/10.30546/114578.2025.9.1039*

# SEYİD ƏZİM ŞİRVANİ VƏ "ƏKİNÇİ" QƏZETİ

**Qüdrət Umudlu**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*filologiya üzrə fəlsəfə doktoru, dosent*
*https://ORCID.org/0009-0001-2991-2316*
*qumudov1957@gmail.com*

**Xülasə**

Seyid Əzim Şirvani Azərbaycan klassik poeziyasının ən qüdrətli sənətkarlarından biridir. O, ədəbiyyat tariximizdə klassik Şərq poeziya ənənələrini davam və inkişaf etdirməklə bərabər, milli şeirimizə zamanın tələbinə uyğun yeni mövzular, milli-mədəni tərəqqiyə rəvac verən məzmun və ideya çalarları gətirən novator şair kimi də məşhurdur.

S.Ə.Şirvani böyük maarifçi və pedaqoq idi. Yaradıcılığının mühüm bir qismi maarifçilik ideyalarının təbliğinə həsr olunmuşdur. Seyid Əzim Şirvaninin maarifçilik ideyaları ilə zəngin, elm və təhsil hesabına əldə ediləcək tərəqqiyə ümid edən, ürək ağrılı şeirlərini gözdən keçirsək, vətəndaş yanğısını, qeyrətli bir insanın çabalarını görə, düşüncə və hisslərini duya bilərik. Təqdim olunan məqalədə şairin bu mövzuda yazılmış əsərlərindən qısaca bəhs olunur.

**Açar sözlər:** Seyid Əzim Şirvani, poeziya, maarifçi, Zərdabi, "Əkinçi", xalq, təhsil.

# SEYID AZIM SHIRVANI AND "AKINCHI" NEWSPAPER

**Gudret Umudlu**
*Azerbaijan State Pedagogical University*

**Abstract**

Seyid Azim Shirvani is one of the most powerful figures in Azerbaijani classical poetry. In the history of our literature, he is known not only for continuing and developing the traditions of classical Eastern poetry but also as an innovative poet who introduced new themes to our national poetry, in line with the demands of the time, and who enriched it with content and ideas that promoted national and cultural progress.

S.A.Shirvani was a great enlightener and educator. A significant part of his creative work was dedicated to the promotion of enlightenment ideas. When we examine the poems of Seyid Azim Shirvani that are rich with enlightenment ideals and that express hope for progress through science and education − often filled with heartfelt pain − we can see the passion of a true patriot, the efforts of a devoted individual, and feel his thoughts and emotions. This article briefly discusses the poet's works on this subject.

**Key words:** Seyid Azim Shirvani, poetry, enlightener, Zardabi, "Ekinci", people, education.

## СЕЙИД АЗИМ ШИРВАНИ И ГАЗЕТА «ЭКИНЧИ»

**Гудрет Умудлу**
*Азербайджанский государственный педагогический университет*

**Резюме**

Сейид Азим Ширвани − один из самых выдающихся мастеров классической азербайджанской поэзии. В истории нашей литературы он известен не только как продолжатель и развиватель традиций классической восточной поэзии, но и как новаторский поэт, который внес в национальную поэзию новые темы, соответствующие требованиям времени, а также идеи и содержание, способствующие национально-культурному прогрессу.

С.А.Ширвани был выдающимся просветителем и педагогом. Значительная часть его творчества была посвящена пропаганде идей просвещения. Если мы обратимся к наполненным просветительскими идеями, проникнутым болью сердца стихам Сейида Азима Ширвани, в которых выражается надежда на прогресс через науку и образование, мы сможем увидеть гражданскую боль, усилия достойного человека, почувствовать его мысли и переживания. В представленной статье кратко рассматриваются произведения поэта на эту тему.

**Ключевые слова:** Сейид Азим Ширвани, поэзия, просветитель, Зардаби, «Экинджи», народ, образование.

### Giriş/İntroduction

Azərbaycan klassik poeziyasının görkəmli simalarından biri də Seyid Əzim Şirvanidir. 1835-ci ilin 10 iyulunda qədim "şeir və sənət ocağı" Şamaxıda dünyaya gələn Seyid Əzim XIX əsr əllinci illərinin ortalarında poeziya aləminə

qədəm qoymuş, əlli üç illik ömrü (1888-ci ilin 1 iyununda vəfat etmişdir), otuz üç illik ədəbi fəaliyyəti ərzində biri-birindən qiymətli, ölməz sənət nümunələri yaratmışdır. Bu il Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə 190 illiyini qeyd etdiyimiz sənətkar irihəcmli geniş yaradıcılıq diapazonu ilə səciyyələnən bədii irs qoyub getmişdir. Şairin bədii irsindən biri Azərbaycan türkcəsi, digəri fars dilində olan iki külliyyatdan ibarətdir. Anadilli küliyyatı üç hissəyə ayrılır ki, onun birincisi qəsidə, həcv, mənzum məktub, təcribənd, tərkibbənd, müxəmməs, təcnis, müsəddəs, müstəzad və s. əsərlərdən, ikinci hissə qəzəl, rübai, qitə və s., üçüncü hissə isə məzmun hekayələrdən ibarətdir [bax: Hüseynov, 1987:462].

Seyid Əzim Şirvani dedikdə, ilk növbədə, xəyalımızda böyük qəzəl ustadının obrazı canlanır. Lakin Seyid Əzim M.Füzulidən sonra Qövsi, Saib Təbrizilər və bir sıra digər qəzəl sənətkarları kimi bu janrı ucalıqda saxlayan, ona yeni-yeni ifadə və məzmun çalarları gətirən qüdrətli sənətkar olmaqla bərabər, ictimai-mədəni fikir tariximizdə əhəmiyyətli rol oynamış, maarifçi-realist məzmunlu və ideyalı əsərlər – mənzum məktublar, hekayələr, əxlaqi-didaktik səciyyəli şeirlər, təmsillər, satirik poetik nümunələr müəllifi kimi də məşhurdur.

**S.Ə.Şirvani və maarifçilik.** Dövrünün ən tanınmış maarifçi-realistlərindən biri, Azərbaycan pedaqoji fikir tarixində çox mühüm işlər görən S.Ə.Şirvani xalqının maariflənməsi, cəmiyyətin nadanlıq girdabından qurtulması, millətinin tərəqqi aləminə qovuşması yolunda həyatını sərf etmiş sənətkardır. Şairin yaradıcılığı ilə ətraflı tanış olduqda görürük ki, "*XIX əsrin 70-ci illərindən etibarən Seyid Əzimin yaradıcılığında ciddi yeniləşmə və müasirləşmə prosesi başlanır. O, əvvəlki yaradıcılıq ənənələrini davam etdirməklə yanaşı, öyüdlər, nəsihətlər mənzum və mənsur hekayələr, təmsillər, satirik şeirlər yazır, bədii tərcümə ilə məşğul olur. "Əkinçi", "Ziya" ("Ziyayi-Qafqaziyyə"), "Kəşkül" kimi dövrü mətbuat səhifələrində zəmanəsinin müxtəlif məsələlərinə aid publisist yazılar dərc etdirir. Yaradıcılığında satirik və didaktik pafos üstünlük təşkil edir"* [Məmmədov, 2005:16]. Şairin bu tipli – zamanın hökmü ilə yaranan əsərləri içərisində publisistik yazıları, mənzum məktubları mühüm əhəmiyyətə malik idi.

**Seyid Əzim və "Əkinçi".** "Əkinçi" nəşrə başlayıb aləmə səs-səda salanda Seyid Əzim kimilərin sevincinin həddi-hüdudu olmur. Belə mübarək işi anlamayan, qəzetin cəmiyyət üçün əhəmiyyətini dərk etməyən cahillərin: "Qəzet nədir?" sualına eyni adlı şeirində şair tutarlı cavab vermişdir. Nəzmin əvvəllində şair həmin sualı poetik tərzdə belə səsləndirir:

*Dün sual etdi bir nəfər cahil –*
*Ki, qəzetdən nədir bizə hasil?*
*Bu Həsən bəy nə istəyir bizdən,*
*Doldurub aləmi quru sözdən.*
*... Hiç doğru deyil bunun nəfəsi,*
*Nə qəzetdir? Tamam pul tələsi* [Şirvani, 2005:57].

Xalq arasında dedi-qodu ilə tüfeyli həyat keçirən, nadanlığın ümumiləşmiş obrazı təsirində olan həmin cahilin sualına cavab verən şair ona, əslində xalqa belə izah edir:

*Dedim: - Ey cahili – kərihxitab,*[*]
*Gərçi nadanə yoxdu hiç cavab.*
*... Hamı millətdə var qəzetlər çox,*
*Demə kim, bunda hiç faidə yox.*
*Qəzetin çoxdu xəlqə mənfəəti,*
*Nə bilir kim ki, yoxdu mərifəti?!*
*... Nə qəzet, mayeyi-səadətdir,*
*Nə qəzet, eyni-elmi-hikmətdir* [Şirvani, 2005:58].

Şair öz poetik cavabı ilə avam xalqa, cəmiyyətin geri qalmışlarına anladır ki, savad almaq, qəzet oxumaq çox vacibdir. Qəzet insanın bəsirət gözünü açan, onun həyata baxışını formalaşdıran, kütləni maarifləndirən, səadətin mayası, hikmət mənbəyidir. Cəmiyyətə fayda verən qəzetlərə nümunə gərəyi "Tiflisski vestnik", "Kavkaz" kimi rus dilində çıxan orqanların adlarını çəkib faydasını xatırladan şair ilk milli mətbuat orqanı olan "Əkinçi" qəzetini xüsusi ehtiramla qeyd edir. Anadilli mətbuatın ilk qaranquşu – böyük Zərdabinin bu milli-mənəvi töhvəsi, Seyid Əzimə görə, millətin gözünü açan, xalqı "xabi-qəflət"dən oyadan, aqrar ölkədə inqilabi işlər görən bilik və məlumat vasitəsi və mənbəyidir. "Əkinçi", bir sözlə, "əhli-islamı" canlandıracaq bir qəzetdir:

*Xassə ol kim, "Əkinçi"yi-dana,*[**]
*Əhli islamı eyləyib ehya*[***] [Şirvani, 2005:59].

"Əkinçi" fəaliyyətə başladığı andan öz səhifələrində "ziraət xəbərləri" (kənd təsərrüfatı ilə əlaqədar xəbər, məlumat və məsləhətlər) ilə yanaşı, müsəlman xalqlarının, özəlliklə, Azərbaycan türklərinin tərəqqisini şərtləndirəcək yolların tapılması ilə bağlı müzakirələr açır, həmin müzakirələrdə "feodalizmdən qalma, müasir dövr üçün əhəmiyyətini itirən ictimai və mədəni

[*] Kərihxitab – nifrətəlayiq sual sahibi, iyrənc məqsədli kəs.
[**] "Əkinçi"yi dana – yəni, bilik mənbəyi "Əkinçi".
[***] "ehya" - sözü burada "can verən" mənasındadır.

təsisatlar" – köhnəlmiş təlim-tərbiyə metodları, novatorluqdan uzaq ədəbiyyat, tədris vəsaitləri tənqid edilir, "əski cəmiyyəti islah edib", kökündən dəyişib yenilərini – daha müasirini, tərəqqiyə rəvac verənlərini açıb-yaratmaq məsələlərini qoyurdu. S.Ə.Şirvani də millətsevər fədai kimi müzakirələrdə fəal iştirak edir, M.F.Axundzadə, H.Zərdabi, Nəcəf bəy Vəzirov, Əhsənül Qəvaid, M.Nəvvab, Ə.Gorani, Məhbus Dərbəndi, Məhəmmədtağı Əlizadə və b. ilə həmfikir olub "*müstəmləkə şəraitində, dini fanatizmin təzyiqi altında yaşayan Azərbaycan xalqının fiziki və mənəvi əsarətdən qurtuluş yolunu maarifləndirməkdə, orta əsrlərdən qalma zərərli şüur və düşüncə tərzindən uzaqlaşmaqda, elmi-texniki biliklərə yiyələnməkdə, cəmiyyəti çürüdən tüfeyli təbəqələrin kökünü kəsməkdə görürdü"* [Məmmədov, 2005: 16].

S.Ə.Şirvaninin "Əkinçi" qəzetinə, onun təsisçisi və baş mühərriri Həsən bəy Zərdabiyə münasibəti – hədsiz rəğbəti haqqında akademik F.Qasımzadə yazırdı: *"Maarifçi şair üçün "Əkinçi" bir xitabət kürsüsü idi. O, xalqa qəflət və cəhalət yuxusundan oyanmağa çağırır, Həsən bəy Zərdabinin xeyirxah, maarifçi təşəbbüslərini alqışlayır, onu bilikli bir müəllim və xeyirxah bir insan kimi qiymətləndirirdi"* [Qasımzadə, 2017:474].

Bəli, bir şairin "Əkinçi"yə, yəni özəl və şəxsi olaraq Həsən bəy Məlikova (Zərdabiyə) ünvanladığı dünyagörüşünə heyranlığını, xalq yolunda maarifçilik fəaliyyətini, bu yöndə yenilikçi təşəbbüslərini və atdığı addımları alqışladığını görürük. Seyid Əzimin böyük maarif və mədəniyyət xadiminə "Əkinçi"də çap olunmaq üçün göndərdiyi mənzum məktublardan biri çox mühüm sosial - əxlaqi dəyərə malik "Qafqaz müsəlmanlarına xitab" adı ilə tanıdığımız əsəridir. Şairi bu mənzum müraciətnaməni xalqa xitabən qələmə almağa vadar edən millətinin dərdləri, cəmiyyətdəki nadanlığın, geriliyin, sosial mühitdəki eybəcərliklərin bitib-tükənməməsidir.

Məktubun müqəddiməsində Həsən bəy Məlikova xitab edən şair Zərdabini bir alim şəxs, xalqı oyatmağa çalışan bilikli müəllim kimi qiymətləndirir və göndərdiyi "ərzi-halı" müzakirə münasibəti və xeyirli bir nəticəyə varmaq məqsədilə qəzetdə dərc etməyi ondan "iltica" edirdi. Əsərin əsas hissəsində müəllifin oxucusuna çatdırmaq istədiyi mətləb diqqət çəkir. Qafqaz müsəlmanlarının başbilənlərinə, millətin xeyir iş görmək əzmində olan kəslərinə, xalq qeyrəti çəkənlərə üz tutan şair ürək yanğısı ilə millətin dərdlərini anladaraq yazırdı:

*Əssalam, ey güruhi – xeyr - əsər,*
*Millətin qeyrətin çəkən kəslər!*
*Kişidə olmasa əgər qeyrət,*

*Ondan, əlbəttə, yaxşıdır övrət.*
*Dadü – fəryad, ey güruhi-izam,*
*Oldu zaye bu milləti-islam.*
*Günü gündən zəlilü xar olduq.*
*Möhnətü qussəyə düçar olduq.*
*Bu qədər dərd kim, olur hadis,*
*Ona bielmlik olur bais* [Qasımzadə, 2017:117].

Şairə görə, nadanlıq, elmsizlik nahəyəti bilinməyən zülmətə bərabər bir bəladır ki, onun dəvası − əlacı elm öyrənməkdə, mütərəqqi təhsildədir. Xəstə olan kəs necə ki təbibə üz tutar, dəva-dərman edər və səhhəti yerinə gələr, indi bizim "millət-islam da naxoşdu və ona əncam eləmək gərəkdir:

*Dərdimizdir bu dərdi – nadanlıq –*
*Ki, tutublar bizi pərişanlıq.*
*Qeyrilər etdilər tərəqqiyi – tam,*
*Qaldı zillətdən firqeyi-islam* [Qasımzadə, 2017:118].

Şairə görə:

*Zinəti – şəxs elmi-ədyandır,*
*Elmsiz şəxs misli-heyvandır* [Qasımzadə, 2017:120].

Şair "Qafqaz müsəlmanlarına xitab"da, eləcə də bu məzmunlu digər əsərlərində millətin dərdlərini bir-bir bəyan edir. Özünün açdığı "üsuli-cədid" məktəbi şagirdlərin azlığı, imkansızlıq və avamlıq ucbatından oxuyanların azlığı, maliyyə çətinliyi səbəbindən bağlanmaq üzrədir. Ədib-pedaqoq qeyrətli, imkanlı kimsələrdən kömək istəyir. O arzu edir ki, məktəb bağlanmasın, əksinə yeniləri açılsın, xalqın övladları elm oxuyub savadlansın, nadanlığın daşını atsın, zülmətdən qurtulub aydınlığa qədəm qoysun.

Seyid Əzimin H.Zərdabiyə ünvanladığı digər bir mənzum məktub "Əkinçi"nin açdığı müzakirələrdə iştirak edərək fikirlər yürüdən Mir Möhsün Nəvvaba cavab olaraq yazılmışdır. M.Nəvvab (1883-1918) şair, rəssam, nəqqaş, ədəbiyyatşünas, tarixçi, musiqişünas, müəllim və s. bir sözlə ensklopedist alim, həm də maarifçi ziyalı idi. O, M.F.Axundzadə, H.Zərdabi, S.Ə.Şirvani kimi qələm sahibi və vətənpərvər şəxslərin çağrışına əməl edib, 90-cı illərin ortalarında məktəb açmış, orada tədris üçün bir neçə dərslik də tərtib etmişdi. Həmin mənzum məktubda Seyid Əzim Möhsümün fikirlərinə qüvvət verərək yazırdı:

*Elmsiz kimsənə hünərsizdir,*
*Elmi-bitərbiyət səmərsizdur.*
*Tərbiyət mayeyi – səadətdir,*

*Tərbiyət şəxsə mailü dövlətdir* [Qasımzadə, 2017:122].

Məktub vasitəsilə tərəf müqabili ilə dərdləşən şair poetik dillə cəmiyyətə başa salır ki, köhnə, faydasız təlim üsulu və tədris materialından uzaqlaşıb, yeni, daha müasir və səmərəli, sosial tərəqiyyə kömək göstərərək məktəblər açaraq, orada yeni bəşəri elmlər tədris etmək lazımdır. Buna nail olmaq üçün yeni fikirli, təhsilli müəllim kadrları və şübhəsiz ki, maliyyə vəsaiti, yəni insanların yardımı, ianə etmələri çox vacibdir. Odur ki, Vətənin qeyrətli oğulları, öndə-başda olanlar, oxumuş insanlar qabağa durmalı, səy göstərməlidirlər. Şairin bu xüsusda qənaəti belədir. O, həmfikirlərinə belə deyir:

*Möhsünə, ey fəda olum sənə mən!*
*Etdiyin fikri – bikrə səd əhsən!*
*...Tutalım eylədik bu əmrə tifaq,*
*Tərbiyət biz gərək ki, kimdən alaq?*
*Hansı məktəbdə övci-ətfali*
*Hansı bir elmdən edək halı?*

Sonra davam edərək maarif fədaisi şair deyir ki:

*Əvvəla, bizdə yox o məktəblər –*
*Ki, verə kəsbi – elmi xəlqə səmər.*
*Nə o günə kitablar əlan –*
*Ki ola öz lisanımızda bəyan.*

Ədib acı bir təəssüf hissi ilə dilə gətirir ki, cəmiyyətdəki elm və təhsilə olan mənfi münasibət, insanların ətaləti, habelə bir sürü digər çatızmazlıqları aradan qaldırılmadan əhalinin savadlanmasında hansı irəliləyişdən danışmaq olar?! Təhsil almaq üçün məktəb və ona lazım olan, az-çox yararlı binalar yox, yeni tipli məltəblərdə dərs deyəcək müəllimlər, oxu kitabları, dərslik və dərs vəsaitləri yox dərəcəsində və s. – bütün bunlar həllini gözləyən məsələlər kimi qarşıda durarkən hansı tərəqqidən danışmaq olar? Lakin şair o qədər də bədbin deyil. O bilir və əmindir ki, öndərlər, ziyalılar, sərmayə əhli səy göstərsə vəziyyət düzələr, müsəlman camaatı qabağa gedər, buna nail olmaq üçün:

*Məgər ol Əsgəri-Gorani*[*] *gələ,*
*Neçə məktəb gələ dəxi əmələ.*
*Vəzirov bəlkə eyləyə imdad,*
*Ola bu qövmi elm üçün irşad.*
*Açə onlar da mən kimi məktəb,*

[*] Əsgər ağa Gorani (1857-1910) – Maarifçi, yazıçı, teatr xadimi və ictimai xadim. Onun "Əkinçi" qəzetində 39 məqaləsi dərc olunmuşdur.

*Çəkələr ruzi şəb əzabü təb.*

S.Ə.Şirvaninin "Əkinçi"də dərc etdirdiyi bir sıra şeirlərində, o cümlədən 30 mart 1876-cı il və 20 oktyabr 1877-ci ildə Həsən bəyə yazdığı və qəzetdə çap olunan mənzum məktublarında da öz amalını ortaya qoymuş, öz milli qayəsini qəzetin oxucuları, yazarları – millətin aydınları ilə paylaşmışdır.

**Nəticə/Conclusion**

Mütəfəkkir şair, maarifçi-pedaqoq S.Ə.Şirvani "Əkinçi" qəzetinin mədəni, elmi-ədəbi dəyərinə, milli tərəqqi naminə əhəmiyyətini çox yaxşı bilir, milli mədəni inqilaba xidmət edən məramın qəzetin tribunasından xalqa çatdırmağa çalışırdı. "Əkinçi" S.Ə.Şirvani üçün maarifçilik ideyalarını yaymaq, xalqına çatdırmaq üçün bir xitabət kürsüsü idi. Şair müasirlərini "Əkinçi"ni oxumağa, hər bir vasitə ilə ona yardım etməyə çağırırdı. Milli mətbuatın özülündə dayanan bu qudsal mətbuat orqanı Seyid Əzim kimi millətini sevən və düşünən insanlar, ümumiyyətlə cəmi millət üçün sanki, havasız və işığa möhtac məkanda bir nəfəslik və işıqlıq rolunu oynayırdı. Məhz bu səbəbə əsasən Şirvani yazırdı:

*Bəs "Əkinçi" cəlalımızdı bizim,*
*Nasehi xoşməqalımızdı bizim.*
*Səy edin, ey güruhi – niksifat!*
*Etməsin ta bizim "Əkinçi" vəfat* [Şirvani, 1963:13].

## ƏDƏBİYYAT/REFERENCES

1. Hüseynov, S. (1987). Seyid Əzim Şirvani. – Bakı: "Yazıçı". – 124 s.
2. Qasımzadə, F. (2017). XIX əsr Azərbaycan ədəbiyyatı. – Bakı: "Elm və təhsil". – 552 s.
3. Məmmədov, X. (2005). Ön söz // S.Ə.Şirvani seçilmiş əsərləri. – Bakı: "Çaşıoğlu". – s.4-28.
4. Mirbağırov, K. (1959). Seyid Əzim Şirvani. – Bakı: "Uşaqgəncnəşr". – 329 s.
5. Şirvani, S.Ə. (2005). Əsərləri. 3 cilddə. II cild. – Bakı: "Avrasiya press". – 384 s.
6. Şirvani, S.Ə. (2005). Seçilmiş əsərləri. – Bakı: "Çaşıoğlu". – 360 s.
7. Şirvani, S.Ə. (2013). Seçilmiş əsərləri. – Bakı: "Şərq-Qərb". – 492 s.
8. Şirvani, S.Ə. (1963). Şeirlər. – Bakı: Azərnəşr. – 40 s.

**Məqalə tarixçəsi**
*Daxil olub* *22.08.2025*
*Qəbul edilib* *10.09.2025*
*Nəşrə tövsiyə edib* *Məhərrəm Məmmədli*
*filologiya üzrə fəlsəfə doktoru, dosent*